# Təxribatlar gözləniləndir

## Yenidən "fəallaşan" Ermənistanın məqsədi Qərbdən daha çox silah-sursat, maliyyə vəsaiti almaqdır

Son zamanlar Ermənistan-Azərbaycan şərti sərhədinin müxtəlif istiqamətlərində Ermənistan silahlı qüvvələrinin canlı qüvvəsi, zirehli texnikası, artilleriya qurğuları cəmləşdirilməsi müşahidə olunur.

Uzun müddətdir Qərbin və ABŞ-nin dəstəyi ilə silahlanan və təxribatlara təhrik edilən Ermənistan həmişəki kimi oyun oynayır. Hər zaman görüşdən əvvəl ölkəmizə qarşı təxribatlar törədərək Azərbaycanı ittiham edən Ermənistan yenə də eyni ssenarini davam etdirir.

Amma budəfəki təxribatların arxasında Aİ və ABŞ-nin durduğu açıq-aşkar ortadadır. Aprelin 5-də keçiriləcək üçtərəfli görüş də bunu bir daha təsdiqləyir.

Şərti sərhəddə müşahidə edilən aktivliyə nəzərən Ermənistanın növbəti təxribatlarının gözlənilən olduğu bildirilir. Elə bununla bağlı Azərbaycan Müdafiə Nazirliyi də qarşı tərəfə xəbərdarlıq edib. Qeyd olunub ki, Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycana qarşı hər hansı hərbi təxribat cəhdi olarsa, onun qarşısı Azərbaycan Ordusu tərəfindən qətiyyətlə alınacaq.

Vəziyyətin gərginləşməsinə və baş verə biləcək hər hansı təxribata görə bütün məsuliyyət tamamilə Ermənistan və onun havadarlarının üzərinə düşəcək.

Hərbi ekspert Ədalət Verdiyev məsələ ilə bağlı "Azərbaycan" qəzetinə açıqlamasında bildirib ki, Ermənistanın Azərbaycanla şərti sərhədə silah, zirehli texnika və şəxsi heyət toplaması birmənalı olaraq gələcək mümkün təxribatlardan xəbər verir. Onun sözlərinə görə, bu, Azərbaycanla Ermənistan arasında formalaşmaqda olan kövrək sülhə ciddi mənfi təsir göstərəcək: "Bu fəaliyyətlər Ermənistanın dövlət maraqlarına qətiyyən uyğun gəlmir. İndiyə qədər baş verən təxribatlar zamanı Ermənistan kifayət qədər ciddi və sarsıdıcı zərbələr alıb. Ermənistanın aprelin 1-dən mayın 28-nə qədərki genişmiqyaslı hərbi toplanışlar keçirməsi, 5000 nəfərə qədər ehtiyatda olan hərbçinin ordu sıralarına çağırılması və onlar arasında mühəndis, kəşfiyyat, artilleriya üzrə mütəxəssislərin üstünlük təşkil etməsi Ermənistanın növbəti təxribatlarının genişmiqyaslı ola biləcəyi ehtimalını irəli sürməyə imkan verir".



Təxribatlar törətməkdə Ermənistanın iki əsas məqsəd güddüyünü deyən ekspert bildirib ki, birincisi, Avropa İttifaqının və Qərbin maraqlarına uyğun olaraq Rusiya hərbi bazasını və sərhədçilərini ərazisindən çıxarmaqdır. Bunun üçün Azərbaycanla təxribatlara başlayaraq həm Azərbaycanı, həm də Rusiyanı bu məsələdə günahlandırmaqla Qərbdən daha çox silah-sursat, maliyyə vəsaiti əldə etməyə çalışır. Beləliklə, Qərbi öz ərazisində təhlükəsizlik üçün qoşunlar yerləşdirməyə istiqamətləndirmək məqsədi güdür.

***Ə.QARDAŞXANOVA,***
***"Azərbaycan"***

azerbaijan-news.az

Azərbaycan.- 2024.- 2 aprel, № 67.- S.8.